# Azərbaycanın inkişafında gənclərin rolu danılmazdır

**Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc həmin proqramdan faydalanır. Bu faktlar ölkəmizdə gənclərin hərtərəfli yetişmələri, beynəlxalq aləmə inteqrasiya olunması istiqamətində yaradılan şəraitin , son illər kadr siyasətində onlara böyük üstünlük verilməsinin təsdiqidir.

Prezident İlham Əliyev Yevlax Şəhər İcra Hakimiyyətinə və Xaçmaz Rayon İcra Hakimiyyətinə başçı vəzifələrinə yeni təyinatla bağlı keçirdiyi qəbulda da gəncliyə inandığını və güvəndiyini bir daha bəyan etdi: “Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı var. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik”.

Azərbaycanda gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə ulu öndər tərəfindən 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ilə dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı.

Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Gənclərə inanan, müstəqilliyimizin bərpasında, qorunub saxlanılmasında onların rolunu yüksək qiymətləndirən ulu öndər bu sahəyə diqqəti artırmağın zəruri olduğunu bildirirdi: “Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir”.

Ulu öndər deyirdi ki, Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq. Ulu öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı. Çox yaxşı bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq. Məhz bütün bunlara görə,1997-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi.

**Prezident İlham Əliyev 120 tamhüquqlu üzvü, 17 müşahidəçi dövləti və 10 beynəlxalq təşkilatı özündə birləşdirən Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündəki nitqində gənclərlə bağlı məsələlərə xüsusi diqqət ayırdı. Dövlətimizin başçısının “Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, Vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar” – fikri tədbir iştirakçılarında böyük marağa səbəb oldu. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq gənclər sammitinin keçirilməsi də maraqla qarşılandı. Respublikamızın rəhbərinin öz nitqində qeyd etdiyi kimi, XVIII Zirvə Görüşü ərəfəsində keçirilmiş gənclər sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər.**

Son 16 ildə gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən dövlət proqramlarının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilib. 2005-2009-cu illəri əhatə edən “Azərbaycan Gəncliyi Dövlət Proqramı” bu baxımdan çox mühüm rol oynayıb. “Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı bu tədbirlərin məntiqi davamı olub. Gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Onların asudə vaxtının səmərəli təşkili, müxtəlif peşə və sənətə yiyələnməsi məsələsi də daim diqqətdə saxlanılır. Bu baxımdan bölgələrdə yaradılan gənclər mərkəzləri müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan gənclərinin sağlam ruhda böyüməsi və layiqli vətəndaş kimi yetişməsi üçün ölkə rəhbərliyi tərəfindən ardıcıl və sistemli şəkildə həyata keçirilən dövlət gənclər siyasəti hər bir gəncin ölkənin ictimai-siyasi həyatında və beynəlxalq tədbirlərdə fəal iştirakı üçün əlverişli şərait yaradıb. On minlərlə gənci birləşdirən 128 gənclər təşkilatının üzvləri bu qayğını öz fəaliyyətlərində və gündəlik həyatlarında hiss edirlər.

Bu gün dünyanın ən yüksək tribunalarından gənclərimizin səsinin eşidilməsi, dövlət idarəçiliyində məsul vəzifələrin onlara etibar edilməsi bu inam və etimadın bariz nümunəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən gənclər siyasətinin nəticəsi olaraq, müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlətimizin başçısının gənclərə xitabən: “Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”, – deməsi Azərbaycan gəncliyinə olan inamı bir daha nümayiş etdirir.

Gənclər təşkilatlarının təşəbbüslərinin, onların cəmiyyətin inkişafına yönəlmiş layihələrinin, həmçinin beynəlxalq əməkdaşlığının dövlət tərəfindən dəstəklənməsi gəncliyin dünya birliyinə inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Bu gün gənclər təşkilatlarının fəaliyyəti ən ali səviyyədə qiymətləndirilir.

Digər ölkələrin gəncləri eşidəndə ki, Azərbaycanda gənclər üçün Prezident mükafatı təsis olunub, onlar çox təəccüblənir və ölkəmizdə gəncliyə göstərilən qayğının dünyada analoqu olmadığı qənaətinə gəlirlər.

Gənclərimizin Vətənin müdafiəsində, torpaqlarımızın işğaldan azad edilməsində, həmişə ön cərgədə olmaları, bu yolda canlarını qurban verərək Şəhidlik zirvəsinə yüksəlmələri ilə hər birimiz fəxr edirik. Qürurverici haldır ki, şəhidlərimizin böyük əksəriyyəti gənclərdir. Müstəqillik tariximizə şanlı qələbə kimi həkk olan 2016-cı ilin Aprel döyüşlərində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi. Bu tarixi qələbə nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. İndi həmin torpaqlarda – Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağı dalğalanır. Bu, böyük tarixi qələbədə gənclərimiz əsl şücaət və qəhrəmanlıq nümayiş etdirdilər.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır: “Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır”.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***